# “Bakı-2015” ilk Avropa Oyunları ilə Azərbaycan dünyanı heyrətləndirdi

Azərbaycan xalqı ictimai-siyasi, sosial-iqtisadi həyatının yeni bir dövrünü – çiçəklənmə və inkişaf mərhələsini yaşayır. Artıq ölkəmiz dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında qabaqcıl yerlərdən birini tutur.

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan strateji kurs daxili ictimai-siyasi sabitliyi və tərəqqini də ən yüksək səviyyədə təmin edib. Ölkəmizdə hökm sürən ictimai-siyasi sabitliyin əsaslarını dövlət tərəfindən həyata keçirilən uğurlu islahatlar və tətbiq edilən yeniliklər, inkişaf modelləri təşkil edir. Ölkəmizə gələn rəsmi qonaqlar, turistlər, ekspertlər bu əmin-amanlığı, sabitliyi yüksək dəyərləndirir, Azərbaycanın seçdiyi inkişaf modelini dəstəkləyirlər. Azərbaycan beynəlxalq aləmdə özünü demokratik, sivil, sülhsevər bir dövlət kimi tanıdıb. Buna görə də beynəlxalq təşkilatlar ən mötəbər tədbirlərin Azərbaycanda keçirilməsinə razılıq verirlər.

İlk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi üçün verilən vaxt çox az idi. Qısa zamanda nəhəng işlər görülməli, yeni idman arenaları üçün yerlər seçilməli, köhnə idman komplekslərində təmir aparılmalı, yeni avadanlıqlar alınmalı, nəqliyyat və digər sahələrdə mühüm tədbirlər həyata keçirmək lazım idi. Heydər Əliyev Fondunun prezidenti, İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri, millət vəkili Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bu nəhəng işlər vaxtında, planlı şəkildə yerinə yetirildi. Təşkilat Komitəsi üzərinə qoyulan tapşırıqları böyük məsuliyyətlə yerinə yetirməklə bir daha sübut etdi ki, Azərbaycan xalqı, onun Prezidenti ən ağır, çətin, şərəfli işləri qısa zamanda yerinə yetirməyə qadirdir.

Yarışların keçiriləcəyi 18 arena vaxtında qapılarını idmançıların üzünə açdı. Qeyd edək ki, 17 gün ərzində 20 idman növü üzrə 253 dəst medal uğrunda təşkil olunan yarışların keçirildiyi arenaların inşasından idmançıların qarşılanması və yerləşdirilməsinədək bütün məsələlər çox yüksək səviyyədə həll olunmuşdur. Yarışlarda Azərbaycan da daxil olmaqla 50-dək ölkədən təxminən 6 min idmançı iştirak edib. Oyunlar 100-dən artıq ölkədə, o cümlədən Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerikada, Avstraliyada yayımlanmışdı. Yarışlara 150 olimpiya, 200-ə yaxın dünya çempionu qatılmışdı. Azərbaycan 21 qızıl, 15 gümüş, 20 bürünc olmaqla 56 medal qazandı. Azərbaycan komandası medal sıralanmasında Rusiyadan sonra 2-ci yeri tutdu. Yarışlarda iştirak etmiş 291 atletimiz Avropanın güclü idmançıları ilə mübarizə apardılar. Oyunların iştirakçıları arasında 100-dən çox olimpiya mükafatçısı, dünya və Avropa çempionu var idi. Avarçəkmə yarışlarında 21 olimpiya, dünya və qitə çempionu iştirak etdi. Oyunların proqramına daxil edilmiş 12 idman növündə ən güclü atletlər təmsil olunurdular, çünki bu yarışlar gələn il Braziliyanın Rio-de-Janeyro şəhərində keçiriləcək Yay Olimpiadasına lisenziya verirdi. Mübarizə gərgin keçirdi. Rəqiblər də güclü idi. İdmançılarımız onlara bəslənilən ümidləri doğrultdular. Onlar qitənin Almaniya, İspaniya, Britaniya, Fransa, Türkiyə, Ukrayna, Polşa, Hollandiya kimi aparıcı idman ölkələrini geridə qoydular. Bir sözlə, Azərbaycan “Bakı-2015” ilk Avropa Oyunları ilə əldə etdiyi uğurlarla bir daha dünyanı heyrətləndirdi.

**Vahid XƏLİLOV,**
**Bakıdakı 159 nömrəli tam orta məktəbin direktoru, ali kateqoriyalı müəllim.**